

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 245 (23.156)

21 dekabr 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## C.F.Səfərovun Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Cavid Fəxrəddin oğlu Səfərov Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 20 dekabr 2018-ci il*

## Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası istifadəyə verilmişdir

Şərur rayonu qədim tarixə malikdir. Min illər boyu əcdadlarımız bu torpaqda ardıcıl həyat sürmüş, zəngin mədəniyyət və dəyərlər sistemi formalaşdırmışlar. Bəşər sivilizasiyasının ilkin dövrünün yadigarları olan Oğlanqala, Qazma mağarası, Ovçular təpəsi və Qız qalası kimi qədim yaşayış yerlərində aparılan tədqiqatlar Naxçıvan tarixinin öyrənilməsində yeni mərhələ təşkil edir. Bu gün Şərur rayonunun tarixi sistemli şəkildə tədqiq və təbliğ olunur. Rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün yeni binanın tikilməsi də bu tədbirlərin davamıdır.

Dekabrın 20-də Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.







Ali Məclisin Sədri muzeyin yeni binasının istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik edərək demişdir: Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi ümummilli liderimiz Heydər Əliyevin 1980-ci ildə rayonlarda Tarix-Diyarşünaslıq muzeylərinin yaradılması haqqında imzaladığı qərara əsasən yaradılıb. Ötən dövrdə muzeyin fondu eksponatlarla zənginləşdirilib. Muzeyin fondunda 7 mindən artıq eksponatın olması Şərur rayonunun qədim tarixə və zəngin mədəniyyətə malik olmasının göstəricisidir. Şərur rayonu ilk insan yaşayış məskənlərindəndir. Rayonda Qazma mağarası, Oğlanqala, Qız qalası, Maxta Kültəpəsi və digər tarixi yerlər bu ərazilərin ilk insan yaşayış məskəni olduğunu sübut edir. Bunun nəticəsidir ki, Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyində bütün tarixi inkişaf dövrlərinə aid eksponatlar mövcuddur.

Ali Məclisin Sədri demişdir: "Muzeylər xalqımızın milli mədəniyyət nümunələrini özündə yaşadan müqəddəs yerlərdir. Ona görə də muzeylər daim zənginləşdirilməli, qorunmalı və ziyarət olunmalıdır". Fəaliyyət göstərdiyi dövrdə Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi də minlərlə ziyarətçi qəbul etmiş, bu ərazinin tarixi haqqında insanlara ətraflı məlumat verilmişdir. Yaradılan şərait muzeyin fəaliyyətinin daha da genişlənməsinə, eksponatlarla zənginləşdirilməsinə və ziyarətçilərin artmasına imkan verəcəkdir. Bu gün muxtar respublika sakinlərinin təşəbbüsləri ilə evlərdə olan eksponatlar muzeylərimizə təqdim olunur, muzey fondları zənginləşdirilir. Evlərdə saxlanılan eksponatların muzeylərə təqdim olunması tarixi-mədəni irsimizin qorunmasına və daha geniş formada təbliğinə imkan verir.

Ali Məclisin Sədri muzeylərə eksponatlar təqdim edən sakinlərə təşəkkürünü bildirmişdir.

"Milli mədəniyyət nümunələrimiz muzeylərdə qorunaraq gələcək nəsillər üçün saxlanılır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, muzeylərimiz daim zənginləşdirilməli, qorunmalı, eksponatlar qeydiyyata alınaraq dövrləşdirilməlidir. Eyni zamanda muzey işçiləri o yerin və muzeylərdəki eksponatların tarixini öyrənməli, gələn ziyarətçilərə ətraflı məlumat verməlidirlər. Xalqımızın qədim və zəngin tarixi vardır. Tariximiz isə muzeylərdə yaşayır. Bu mənada, muzeylərimiz həm də qürur mənbəyimizdir. Dövlətimiz tərəfindən muzeylərin fəaliyyəti üçün lazımi tədbirlər görülür, proqramlar qəbul olunur, muzeylər yenidən qurulur və eksponatlarla zənginləşdirilir, muzey işçilərinin maddi rifah halları yaxşılaşdırılır. Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi də dövlət vəsaiti hesabına qurulmuş, muzey fonduna yeni eksponatlar daxil edilərək dövrləşdirilmiş, muzey işçilərinin əməkhaqları artırılmışdır. Muzey işçiləri də yaradılan şəraitdən düzgün istifadə etməli, muzey işini, rayonun, eləcə də eksponatların tarixini öyrənməli, ziyarətçilərə dolğun və ətraflı məlumat verməlidirlər.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetiriləcəyinə, Şərur rayonunun tarixinin muxtar respublika tarixinin bir hissəsi kimi öyrəniləcəyinə və qorunub saxlanılacağına əminliyini bildirmiş, muzey işçilərinə fəaliyyətlərində uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək demişdir ki, muxtar respublikada geniş vüsət almış abadlıq-quruculuq tədbirləri mədəniyyət sahəsini də əhatə etmişdir. Qədim diyarımızda tarixi abidələrin bərpası, yeni muzeylərin yaradılması, musiqi məktəblərinin inşası, teatrlara və musiqi kollektivlərinə göstərilən diqqət və qayğı bunun bariz ifadəsidir. Ali Məclis Sədrinin mədəni irsimizin qorunması, yeni muzeylərin yaradılması, xalq yaradıcılığının inkişaf etdirilməsi, tarixi abidələrin bərpası və öyrənilməsi, elmi konfransların keçirilməsi, görkəmli şəxsiyyətlərimizin xatirəsinin əbədiləşdirilməsi və ev-muzeylərinin yaradılması ilə bağlı imzaladığı fərman və sərəncamlar mədəniyyətimizin inkişafına mühüm töhfədir. Naxçıvan Muxtar Respublikasında muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində də mühüm işlər görülür. Yeni muzeylər yaradılır, muzey fondları zənginləşdirilir və internet saytları istifadəyə verilir. Hazırda muxtar respublikada fəaliyyət göstərən 30 muzeydən 17-si son 20 ildə yaradılmışdır. Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Natəvan Qədimova göstərilən diqqət və qayğıya görə muxtar respublikanın mədəniyyət işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Muzeyin direktoru Hüseyn Talıbov demişdir ki, tarixi öyrənmək, tədqiq və təbliğ etmək milli varlığı qorumağın əsas şərtidir. Bu gün istifadəyə verilən Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi də qədim yaşayış məntəqəsi olan Şərurun tarixini bu günə daşıyan, qoruyub-saxlayan, öyrənən və nümayiş etdirən maddi-mənəvi dəyərlər xəzinəsi kimi mühüm əhəmiyyət daşıyır. Yaradılan şərait işimizi günün tələbləri səviyyəsində qurmağa imkan verəcəkdir. Şərur rayonuna xüsusi yaraşıq verən bu gözəl binanı – Rayon Tarix-Diyarşünaslıq Muzeyini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində şərurlulara böyük hədiyyə kimi qəbul edirik. Hüseyn Talıbov muzey işçiləri və muzeyin gələcək ziyarətçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra muzeyə baxış olmuşdur.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan muzeyin birinci mərtəbəsində bələdçi, baş fond mühafizi, zal nəzarətçisi, fond, eksponatların bərpası otaqları, ikinci və üçüncü mərtəbələrdə isə ekspozisiya zalları yerləşir. Muzeydə Şərur rayonunun tarixini, mədəniyyətini, etnoqrafiyasını və təbiətini əks etdirən 7 mindən çox eksponat vardır.

Bərpaçı Məlahət Həsənova muxtar respublikada tarixi-mədəni irsimizin qorunub-saxlanılması sahəsində görülən işlərə görə minnətdarlıq etmişdir.

Ekspozisiyada ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Şərur rayonuna səfərlərinin fotoları, Naxçıvan Muxtar Respublikasının və Şərur rayonunun inzibati-siyasi xəritəsi sərgilənir. Qazma mağarası, Ovçular təpəsi, Maxta Kültəpəsi, Qız qalası, Qarasu qalası, Oğlanqala abidələrinin fotoları, bu abidələrdən aşkar olunan maddi-

Ardı 2-ci səhifədə

mədəniyyət nümunələri – daş süxurlar, obsidianlar, daş, tunc və misdən hazırlanmış əmək alətləri, silahlar, etnoqrafik materiallar, rayon ərazisində istifadə olunmuş sikkələr muzeyin eksponatları sırasında saxlanılır və nümayiş etdirilir. Həmçinin ekspozisiyada XIX-XX əsrlərdə rayon ərazisində istifadə olunmuş məişət əşyaları və kənd təsərrüfatı alətləri, Şərur rayonunun kəndlərində, o cümlədən Günnütdə toxunmuş xalçalar, Şərurun tanınmış şəxsiyyətləri və şəhidləri haqqında məlumatlar və fotolar, “Şərur” Xalq Yallı Ansamblının qazandığı mükafatlar, Şərur rayonuna aid kitab və qəzetlər də ziyarətçilərə təqdim edilir.

Binanın zirzəmisində fond və texniki otaqlar vardır. Binada fərdi qazanxana quraşdırılmış, həyətdə abadlıq işləri aparılmış, müasir işıqlandırma və suvarma sistemləri qurulmuşdur.

Ali Məclisin Sədri muzey fondunun və ekspozisiyanın zənginləşdirilməsi barədə müvafiq tapşırıqlar vermişdir.



## Sosial qayğıya ehtiyacı olanlara mənzillər və minik avtomobili təqdim olunmuşdur



Dekabrın 20-də Şərur rayonunda sağlamlıq imkanları məhdud 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə və 1 hərbi xidmət dövrü əlilinə mənzil təqdim olunmuş, 1 Çernobıl əlilinə isə “NAZ-Lifan 320” markalı minik avtomobili verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə mənzil və avtomobillə təmin olunanlara təşəkkürünü bildirmiş, onlara yeni mənzillərində rahat və firavan həyat arzulamış, mənzillərin orderlərini və avtomobilin açarını təqdim etmişdir.

Mənzillə təmin olunan Azərbaycan Vətən Müharibəsi iştirakçısı Nazim Cavadovun ailə üzvü Gözəl Cavadova demişdir: Muxtar respublikada insanların həyat səviyyəsi günbəgün yaxşılaşır. Bunu biz gündəlik həyatımızda hiss edirik. Vətənimizin müdafiəsi zamanı sağlamlığını itirənlərə, şəhid ailələrinə dövlətimiz tərəfindən hər zaman yüksək diqqət və qayğı göstərilir. Müharibə əlilləri, şəhid ailələri mənzillə təmin olunur, onlara minik avtomobilləri verilir, müalicələrinə köməklik göstərilir. Muxtar respublikada yaradılan şəraitin nəticəsidir ki, çox rahat yaşayırıq. Ailəmizin mənzillə təmin olunacağını eşidəndə çox sevindik. Gözəl Cavadova bayram ərəfəsində onları gözəl şəraitli mənzillə təmin etdiyinə görə Ali Məclisin Sədrinə müharibə əlilləri və şəhid ailələri adından dərin minnətdarlığını bildirmiş, qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik etmişdir.



Mənzillə təmin olunmuş Əziz İbrahimov, Şahin Abdullayev və Sənan Rəhimov, eləcə də avtomobil təqdim edilən Sadiq Rzayev də ailə üzvləri adından minnətdarlıq etmişlər.

2 və 3 otaqlı tam təmirli mənzillər rayonun İbadulla və Dəmirçi kəndlərində, eləcə də Şərur şəhərində yerləşir. 4 mənzilin hər birində lazımi kommunal-məişət şəraiti yaradılmışdır. Yeni mənzillə təmin olunanlara xalça hədiyyə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Dövlət Universitetinin tələbələri ilə görüş keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın inzibati binasında Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisasının IV kurs tələbələri üçün istehsalat təcrübəsi təşkil olunmuşdu.

12 noyabr-20 dekabr 2018-ci il tarixlərdə keçirilən istehsalat təcrübəsi zamanı tələbələr komissiyanın müvafiq sektor və şöbələrinin fəaliyyət istiqamətləri ilə tanış olub, onlara dövlət qulluğuna qəbul, sənəd qəbulunun, dövlət reyestrinin aparılması, “şəxsi kabinet”in yaradılması, müsahibə mərhələsi, müsahibədə iştirak etmək üçün müraciətin edilmə qaydası, ictimaiyyətlə əlaqələrin təşkili ilə bağlı ətraflı məlumat verilib və slaydlar vasitəsilə dərslər keçilib. Tələbələr buradakı Test mərkəzində dövlət qulluğuna qəbul üçün sınaq imtahanının və müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün test imtahanlarının keçirilməsini əyani olaraq izləyiblər.

Təcrübənin son günü keçirilən tədbirdə komissiyanın sədri İsmayıl Qəribli qeyd edib ki, komissiya yarandığı gündən muxtar respublikada kadr siyasətinin həyata keçirilməsini, dövlət qulluğu ilə bağlı qəbul edilmiş normativ-hüquqi aktların tətbiqinin təşkil edilməsini, dövlət qulluğu üçün kadrların müsabiqə yolu və şəffaflıq əsasında seçilməsini, yerləşdirilməsini, dövlət qulluğunun xüsusi növünə aid olan orqanların elan etdiyi müsabiqələrin test imtahanı mərhələsinin təşkil edilməsini və qanunvericiliklə nəzərdə tutulmuş siyasətin həyata keçirilməsini təmin edib. Hazırda Naxçıvan Muxtar Respublikasında vətəndaşların dövlət orqanlarında qulluğa qəbulu üçün hər cür şərait yaradılıb.

İsmayıl Qəribli bildirib ki, “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncam muxtar respublikada kadr potensialının formalaşması, yüksək intellektli mütəxəssislərin hazırlanması baxımından böyük əhəmiyyət kəsb edir. Sözügedən sərəncamdan irəli gələn vəzifələrin icrası məqsədilə komissiyanın təcrübəli əməkdaşları tərəfindən hamiliyə götürülən ixtisasın tələbələri üçün ayda iki dəfə açıq dərslər keçilir, istehsalat təcrübələri təşkil olunur, tələbələr dərslik və dərs vəsaitləri ilə təmin edilirlər.

Naxçıvan Dövlət Universitetinin kafedra müdiri Flora Kərimova istehsalat təcrübələrinin tələbələrin praktik biliklər əldə etmələrində böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Sonda istehsalat təcrübəsi müddətində keçirilmiş tələbələrarası müsabiqədə ilk üç yeri tutmuş tələbələrə sertifikatlar verilib, onlara Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəşrləri olan “Dövlət idarəçilik nəzəriyyəsi”, “Dövlət qulluğunun hüquqi əsasları”, “Dövlət qulluğu: nəzəriyyə və praktika” kitabları hədiyyə edilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## İcbari sığorta hər kəs üçün faydalıdır

Ölkəmizdə 2010-cu il 11 may tarixdə qəbul edilmiş “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikası Qanununa əsasən aparılan icbari sığorta hər bir işçinin və onun sahibkarının maraqlarına xidmət edən sığorta növü kimi əhəmiyyətlidir. Qeyd olunan qanuna əsasən tətbiq edilən icbari sığorta istehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində sığortaolunanların əmək qabiliyyətinin itirilməsi və ya ölümü ilə bağlı sığorta ödənişlərinin verilməsini nəzərdə tutur. Əgər bədbəxt hadisə baş vermişsə, verilən bu ödənişlər iş vaxtı əmək qabiliyyətini itirmiş şəxslərin və ya onların himayəsində olmuş digər insanların maddi təminatına kömək edir.

Qeyd etdiyimiz kimi, icbari sığortanın bu növündə məqsədlər konkretdir. Burada sığortaçı, sığortalı, sığortaolunan və digər faydalanan şəxslərin öz hüquq və vəzifələri vardır. Belə ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən işəgötürən hüquqi və ya fiziki şəxslərlə bağlanmış əmək müqaviləsi və ya mülki-hüquq müqaviləsi əsasında işləyən hər bir işçi, dövlət orqanlarında, idarə, müəssisə və təşkilatlarda çalışanlar, sahibkarlıq və fərdi qaydada əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, habelə azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş və işləyən şəxslər üçün istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərindən icbari qaydada sığorta olunmalıdırlar. Bundan əlavə, həmin qanuna görə, istehsalat təcrübəsi keçən tələbələr, müəssisələrdə işə cəlb olunmuş hərbi qulluqçular, hərbi və fövqəladə vəziyyət rejimində işlərin yerinə yetirilməsinə cəlb olunmuş şəxslər də bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari sığorta olunmalıdırlar.

Hər bir sığorta növündə təminat verilən sığorta hadisələri müqavilə bağlanılarkən əvvəlcədən müəyyənləşdirilir. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta zamanı isə xeyrinə icbari sığorta müqaviləsi bağlanılmalı olan şəxsin əmək fəaliyyətini yerinə yetirdiyi zaman bədən üzvlərinin zədələnməsi ilə sağlamlığının qəflətən və kəskin şəkildə pozulması, o cümlədən əlverişsiz və zərərli istehsalat amillərinin təsiri ilə yaranan xroniki və ya kəskin xəstəlik halları sığorta hadisəsi hesab olunur. Bağlanmış müqaviləyə əsasən belə hallar baş verdikdə sığorta ödənişi almaq hüququna malik faydalanan şəxsə onun məruz qaldığı maddi itkilərin ödənilməsi məqsədilə sığorta məbləği ödənilir. İcbari sığortanın tətbiqi zamanı baş vermiş sığorta hadisəsinin sığortaolunanın özü tərəfindən qəsdən törədilmiş hərəkətin nəticəsi olduğu, habelə onun sərxoş vəziyyətdə olması halında baş verdiyi zaman sığortaçı ödəyəcəyi sığorta ödənişindən imtina hüququna malikdir.

İstehsalatda sığorta hadisəsi nəticəsində zərərçəkmiş şəxslərin özü və ya sığorta hadisəsi nəticəsində sığortaolunanın ölməsi halında onun himayəsində olmuş əmək qabiliyyəti olmayan şəxslər, habelə sığortaolunanın ölümündən sonra doğulmuş uşaqları və digərləri faydalanan şəxslərdir.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta zamanı sığortahaqqının məbləğinə gəldikdə, bu, xeyrinə icbari sığorta müqaviləsi bağlanılan şəxslərin müəyyən olunmuş qaydada hesablanan birillik əməkhaqqı fondunun sığorta tarifinin faiz nisbəti əsasında hesablanır. Sığorta tarifi isə istehsalatda fəaliyyət növündən asılı olaraq müəyyən olunmuş peşə riskinin dərəcəsindən və sığortaolunanların kateqoriyalarından asılıdır. Belə ki, bu məbləğ 0,2 faizdən 2 faizədək müəyyənləşdirilir.

İcbari sığortanın həyata keçirilməsi işəgötürənin qanunvericiliklə müəyyən olunmuş vəzifəsi olmaqla bərabər, həm də hər bir işçinin qanunla təsbit edilmiş haqqıdır. Ona görə də işəgötürən sahibkar öz işçilərinin sosial müdafiəsini tam təmin etməli, onların gələcəkdə maddi təminatlarını risk altına almamalıdır. Bunun üçün həm işçilər, həm də işəgötürən sahibkarlar bu icbari sığorta növündən faydalanmalıdırlar.

**Əli CABBAROV**

*Təhsil millətin gələcəyidir*

# 90 yaşlı məktəbin uğurları



*Muxtar respublikada həyata keçirilən quruculuq tədbirlərindən Culfa rayonunun qədim yaşayış məntəqələri sırasında olan Ərəzinə də xeyli pay düşüb. Burada kənd və xidmət mərkəzləri, məktəb üçün yeni binalar inşa olunaraq istifadəyə verilib, kəndarası yollara asfalt döşənib, digər quruculuq tədbirləri həyata keçirilib. Bütün bunlar kənd sakinləri tərəfindən insan amilinə qayğı kimi dəyərləndirilib. Ərəzinə böyük diqqətin ifadəsi olan yeni məktəb binasında təhsilin səviyyəsinin yüksəldilməsinə ciddi önəm verilir, burada yaradılmış güclü təhsil ənənələri qorunub saxlanılır. Məlumat üçün bildirək ki, bu il tədris ocağının yaradılmasının 90 ili tamam olur. Bu fakt bizi məktəbə getməyə, təhsil ocağının fəaliyyəti ilə yaxından tanış olmağa sövq etdi.*

Bu da məktəb binası... Kəndə xüsusi yaraşıq, məktəblilərə elm, təhsil verən bu ünvandan uzanan yollar neçə-neçə ərəzinlini ölkəmizin ali təhsil müəssisələrinə, elm ocaqlarına aparıb çıxarıb. Bu gün də həmin missiyanı uğurla yerinə yetirir. Ölkəmizin elmi potensialına töhfəsini verməyə çalışır.

*Tarixə kiçik ekskurs.* Bu gün 410 şagird yerlik təhsil ocağı 1928-ci ildə 4 illik məktəb kimi fəaliyyətə başlayıb. 1932-ci ildə yeddiillik, 1933-cü ildə doqquzillik, 1969-cu ildə isə orta məktəbə çevrilib. Bu illərdə uyğunlaşdırılmış müxtəlif binalarda çalışan təhsil ocağının kollektivi bir sıra çətinliklərlə qarşılaşsa da, üzərinə düşən vəzifələrin öhdəsindən gəlməyə çalışıb. Fəaliyyət göstərdiyi dövrlər üçün ənənəvi tədris üsullarından istifadə edən müəllimlər həm də yeni və mütərəqqi metodların axtarışında olub, yetişdirdikləri məzunların yüksək biliyə yiyələnmələri üçün səy və bacarıqlarını əsirgəməyiblər. Çəkdikləri zəhmət hədər getməyib. Müxtəlif elm sahələri üzrə bu gün fəlsəfə və elmlər doktoru elmi dərəcələrinə sahib olan bir neçə məzunun adını çəkmək olar. Belə ki, məktəb mərhum Malikəjdər İbrahimov, Adil Məmmədov, Sənan İbrahimov, İlyas Məmmədov, Abbas Hətəmov, Səbuhi İbrahimov kimi alimləri ilə fəxr edir. Kollektiv onların ardıcıllarının yetişdirilməsinə səy göstərir.

*Bu gün.* 50 müəllimin çalışdığı, 308 şagirdin təhsil aldığı məktəb binası 2009-cu ildə istifadəyə verilib. Fizika, kimya, biologiya laboratoriyaları, zəngin kitabxana, elektron lövhəli və kompüter sinifləri təhsilin səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Təhsil ocağında müasir tədris üsullarına geniş yer verilir. Zəngin kitabxanaya malik məktəbdə kitabxana-oxucu əlaqələrinin genişləndirilməsi məqsədilə kitab müzakirələri, disputlar keçirilməsi bir ənənə şəklini alıb. Burada oxunması zəruri olan kitablardan ibarət sərgi təşkil olunub. Müvafiq sərəncamın qəbulundan ötən müddət ərzində bir neçə kitabın müzakirəsində şagirdlərin fəallığı təmin edilib.

Təhsil ocağında görkəmli dövlət xadimi Heydər Əliyevin hamımız üçün örnək olan həyatı və siyasi fəaliyyətinin şagirdlərə çatdırılması diqqət mərkəzində saxlanılır. Ulu öndərin doğum və anım günləri ərəfəsində rəsm, şeir, inşa yazı müsabiqələri keçirilir. Xalqımızın milli və mənəvi dəyərlərinin yaşadılması istiqamətində hazırlanan tədbirlər də davamlı xarakter alıb.

Təhsil ocağında müxtəlif idman tədbirləri təşkil edilir, məktəbin idmançıları rayon və muxtar respublika səviyyəli yarışlara cəlb olunur, şagirdlər fənn olimpiadalarında, test-sınaq imtahanlarında uğurlu nəticələr qazanırlar.



Kəndin şəhid oğlu Mahmud Zeynalovun adını daşıdığı məktəbdə bütün bunlar pedaqoji prosesin düzgün qurulmasının və kollektivin birgə əməyinin nəticəsi kimi diqqəti çəkir.

Ərəzin kənd tam orta məktəbinin yüksək nailiyyətlər qazanmasının sirlərini təhsil ocağının müəllimlərindən öyrənmək istədik. Onlarla həmsöhbət olduq. Müəllimlərin söhbətlərindən hiss etmək çətin deyildi ki, onlar cəmiyyət üçün əsl vətəndaş yetişdirmək kimi məsuliyyətli bir vəzifənin həyata keçirilməsinə böyük önəm verir, bu prosesdə kollektivin hər bir üzvünün fəal iştirakı təmin olunur.

Məktəbin tarix müəllimi Arif Əliyev deyir ki, muxtar respublikada təhsil işçilərinə göstərilən qayğı, onlar qarşısında qoyulan mühüm vəzifələr bir ali məqsədə söykənib: dövlətçiliyimizə, müstəqilliyimizə sadiq olan vətənpərvər vətəndaşlar tərbiyə etmək. Çünki gələcəyimizin necə olacağı məhz belə vətəndaşlardan asılıdır. Bu məsul vəzifənin yerinə yetirilməsində müasir tədris üsullarına geniş yer veririk. Bu heç də bütün ənənəvi üsulların üstündən xətt çəkmək deyil. Düzdür, bu gün zamanla səsləşməyən bəzi metodlar var, ancaq kollektiv artıq onların özünü doğrultmadığını görür. Məsələn, sübut olunub ki, "Hafizə məktəbi" bugünkü məktəbliyə heç nə vermir. Zaman dəyişdikcə hər gün həyatımıza müxtəlif yeniliklər daxil olur. Həssas müəllim bunu görür və fəaliyyətini də bu istiqamətdə qurur, nəticəsinin uğurlu olması onu daha da ruhlandırır.

Ədəbiyyat müəllimi Nicat Babayev:

– Unutmaq olmaz ki, sinifdə neçə şagird varsa, bir o qədər də xarakter var. Əgər əlinə jurnal alıb sinfə girən müəllim bunu dərindən dərk edirsə, o, nailiyyət qazanmaya bilməz. Fərdi yanaşma və sinfin ümumi fəallığının təmin olunması tədrisin səviyyəsinin yüksəldilməsində böyük təsirə malikdir. Çalışırıq ki, fəaliyyətimizdə bunları diqqətdə saxlayaq.

İbtidai sinif müəllimi Minayə Babayeva deyir ki, təlim-tərbiyə prosesinin tərkib hissələrindən biri məktəbdə sinifdənxaric və məktəbdənkənar tədbirlərin keçirilməsidir:

– Təəssüf ki, bəzən bu tədbirlər tədbir keçirmək xatirinə təşkil olunur. Ona görə də yorucu olur və şagirdin yaddaşında iz qoymur, çəkilən zəhmət hədər gedir. Çalışırıq ki, tədbirlər hazırlananda şagirdlərin sərbəstliyi, təşəbbüskarlığı və fəallığı təmin olunsun. Bunun üçün isə ilboyu müxtəlif əlamətdar və tarixi günlər, bayramlar münasibətilə keçirdiyimiz tədbirlərə ciddi diqqət yetiririk.

Rus dili müəllimi Elmira İmanova təhsilin səviyyəsinin yüksəldilməsində müxtəlif metodlarla yanaşı, şagirdlərin mütaliə mədəniyyətinin inkişaf etdirilməsini də vacib sayır. O, bu işdə məktəb kitabxanasının da üzərinə mühüm vəzifə düşdüyünü deyir:

– Bu gün məktəbimizin kitabxanası klassik və müasir Azərbaycan, həmçinin dünya ədəbiyyatı nümunələri ilə zəngindir. Bu xəzinədən istifadə etmək üçün kitab müzakirələrinin keçirilməsini, kitabxanaya gətirilmiş yeni kitabların sərgilərinin təşkil edilməsini diqqət mərkəzində saxlayırıq. Bu da uşaqlara əlavə biliklər verməklə yanaşı, onlarda mütaliə mədəniyyəti formalaşdırır. Kitablardan necə istifadə olunması üçün bütün müəllimlər məsuliyyət daşıyır və yaxşı haldır ki, həmkarlarım bu məsələdə öz vəzifə borclarına həssaslıqla yanaşırlar.

Elmira müəllimə dərnəklərin düzgün təşkilindən, məktəbin tanınmış məzunları, müharibə və əmək veteranları, bu təhsil ocağını bitirib ali məktəblərdə oxuyan tələbələrlə görüşlərin keçirilməsindən danışır:

– Belə tədbirlər şagirdləri həyatda layiqli yer tutmaq üçün daha yaxşı təhsil almağa sövq edir. Onlar məktəbin tanınmış məzunlarının yollarını davam etdirməyi arzulayır, bu arzulara çatmağın təməlində yalnız elmlərin sirlərinə dərindən bələd olmaq durduğunu dərk edirlər.

Məktəbin direktoru Bayram Məmmədovun sözlərinə görə, tədris ocağı bütün müasir avadanlıqlarla təchiz edilib. Müəllim və şagirdlərin ixtiyarına 12 kompüter, 3 elektron lövhə verilib. Yaradılan şərait bəhrəsiz qalmayıb. Ötən dərs ilində 7 məzun ali məktəblərin, 1 məzun isə Tibb Kollecinin tələbəsi adını qazanıb. Onlardan 1-i 500-dən yuxarı bal toplayıb.

Bu il isə məktəbin 22 məzunu olacaq. Onların böyük əksəriyyətinin tələbə adını qazanmaq şansı var. Ötən dövrdə pedaqoji kollektiv üzərinə düşən vəzifələri yerinə yetirmək üçün əzmkarlıqla çalışıb. Şagirdlərin məktəbdənkənar və sinifdənxaric tədbirlərdə, test-sınaq imtahanlarında, müxtəlif istiqamətli digər bilik yarışlarında fəal iştirakları təmin olunub. Məqsəd aydındır: Yaradılan şəraitə əməli işlə cavab vermək, 90 yaşlı məktəbin ənənələrini qorumaq.

Ərəzin kənd tam orta məktəbi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu tövsiyəsini əldə rəhbər tutub: ***"... Uğurlar qazanmaq üçün zəhmət çəkmək, əziyyət çəkmək, intizamlı və tələbkar olmaq lazımdır... Bu ölkəni qorumaq, inkişaf etdirmək üçün onun təhsilli, vətənpərvər insanları olmalıdır".***

**Muxtar MƏMMƏDOV**

*Muxtar respublikada yaşayan bütün kateqoriyalardan, o cümlədən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqlara hərtərəfli qayğı göstərilir.*

# Uşaqlara hərtərəfli dövlət qayğısı göstərilir

Onların təhsili, milli ruhda təlim-tərbiyəsi, dünyagörüşünün formalaşması və sağlamlıqlarının qorunması diqqət mərkəzində saxlanılır, sosial müdafiələrini gücləndirmək məqsədilə aylıq müavinətlər ödənilir. Həmçinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar dövlət, özəl ali və orta ixtisas müəssisələrində dövlət vəsaiti hesabına təhsil alırlar. Hər yeni tədris ilinin başlanması ərəfəsində onlara məktəbli formaları və dərs ləvazimatları verilir, həmçinin qış geyimləri ilə təmin olunurlar.

Muxtar respublikamızda valideyn himayəsindən məhrum olmuş 39, hər iki valideynini itirmiş 29 uşaq vardır. Dövlətimizin göstərdiyi diqqət və qayğı nəticəsində müvafiq kateqoriyadan olan 28 gənc orta ixtisas və ali təhsil müəssisələrində təhsil alır.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən cari ilin 11 ayı ərzində valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə onların tarix-memarlıq abidələrinə, muzeylərə, istirahət guşələrinə ekskursiyaları təşkil edilib, uşaqlara teatr tamaşaları, film nümayiş olunub, 11 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahətləri təmin edilib. 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə 6 uşağa geyim dəstləri verilib. Bundan əlavə, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 22 uşağa oktyabr ayında yun geyimlər hədiyyə olunub. Bu qəbildən olan uşaqlara ictimai diqqətin artırılması məqsədilə komitənin rəsmi internet saytında 18 yaşadək olan, eyni zamanda ümumtəhsil, orta ixtisas və ali təhsil müəssisələrində təhsil alan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 91 uşağın məlumatı yerləşdirilib.

Belə uşaqların hüquqlarının qorunması məqsədilə yaşadıqları evlərdə mütəmadi olaraq monitorinqlər təşkil olunur, onların yaşayış şəraitləri araşdırılır, problemlərinin həlli istiqamətində konkret işlər görülür. Müvafiq işlər cari ildə də davam etdirilib, valideyn himayəsindən məhrum olmuş 7 uşağın evində monitorinq keçirilib, təhsilləri, yaşayış şəraitləri ilə maraqlanılıb. Sədərək rayonunun Sədərək kəndində yaşayan valideyn himayəsindən məhrum olmuş uşağın ailəsində tədbir keçirilib, uşağa qış geyimi, ailəyə məişət əşyası və ərzaq payı təqdim edilib.

Dövlətimizin müvafiq kateqoriyadan olan uşaqlara göstərdiyi diqqət və qayğının nəticəsidir ki, muxtar respublikada fəaliyyət göstərən Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində valideyn himayəsindən məhrum uşaq yoxdur. Bu kateqoriyadan olan uşaqların hər biri yaxın qohumlarının qəyyumluğunda və himayəsində yaşayır, sağlam böyüyür, milli dəyərlər əsasında tərbiyə edilir, onların intellektual səviyyələri inkişaf etdirilir və ən əsası da ali və orta ixtisas müəssisələrində təhsil alaraq layiqli vətəndaş kimi yetişirlər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Sahibkarlarımız növbəti sərgidə oldular

Son illər muxtar respublikamızda yaradılmış əlverişli şərait hesabına sahibkarlıq subyektləri öz məhsullarını xarici bazarlara çıxarmaq imkanı qazanıblar. Bu cəhətdən xarici ölkələrdə təşkil olunan beynəlxalq tədbirlər mühüm əhəmiyyət daşıyır. Ölkəmizdə və onun hüdudlarından kənarda təşkil edilən beynəlxalq sərgilərdə və bir sıra tədbirlərdə sahibkarların iştirakı təmin olunmaqla, onlara öz məhsul və xidmətlərini nümayiş etdirmək imkanları yaradılır. Bu da, öz növbəsində, həmin sahibkarların istehsal etdikləri məhsulların satışının dəstəklənməsinə xidmət edir.

Bu günlərdə İran İslam Respublikasının Tehran şəhərində "Üçüncü İran İxracat İmkanları – İran EXPO-2018" sərgisi keçirilib.

Sərgidə muxtar respublikada fəaliyyət göstərən Naxçıvan "Xalça" Açıq Səhmdar Cəmiyyətinin, "Karton Tara", "Savalan-S", "Nur Qida" Məhdud Məsuliyyətli cəmiyyətlərinin nümayəndələri və fiziki şəxs Habil Babayev iştirak ediblər.

Tədbirdə yerli sahibkarlıq subyektlərinin nümayəndələri sərgi ilə tanış olub və xarici tərəfdaşlarla əməkdaşlıq imkanlarını müzakirə ediblər. Həmçinin Naxçıvan "Xalça" ASC üçün xammal və digər ləvazimatların alınması ilə bağlı bir neçə İran şirkəti ilə danışıqlar aparılıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Kənd təsərrüfatı sahəsində işlər davam etdirilir



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi noyabr ayında fəaliyyətini illik iş planına uyğun qurmuş, dövlət proqramlarının icrası diqqətdə saxlanılmışdır. Ötən dövrdə 2019-cu ilin məhsulu üçün payızlıq taxıl əkinlərinin optimal müddətdə başa çatdırılması, meyvə və üzüm bağlarında məhsul yığımından sonra aqrotexniki tədbirlərin vaxtında aparılması, bazar və yarmarkalarda kənd təsərrüfatı məhsullarının satışının həyata keçirilməsi ilə əlaqədar olaraq torpaq mülkiyyətçilərinin maarifləndirilməsi məqsədilə bir sıra tədbirlər görülmüşdür.

Meyvə bağlarında, üzümlüklərdə, tərəvəz əkini sahələrində, o cümlədən istixana və parnik təsərrüfatlarında becərmə tədbirlərinin aparılmasına dair hüquqi və fiziki şəxslərə tövsiyələr verilmiş, torpaq mülkiyyətçiləri ilə maarifləndirici görüşlər keçirilmişdir.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar tədbirlər görülmüş, iri arıçılıq təsərrüfatları sahibkarlarının iştirakı ilə müşavirələr keçirilmiş, heyvandarlıq təsərrüfatlarında qışlamaya hazırlıq və heyvanlara zoobaytar qaydalara uyğun qulluq edilməsi ilə bağlı görüşlər təşkil olunmuşdur.

Payız taxıl əkinində istifadə olunan texnikaların sazlığı daim nəzarətdə saxlanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## “Kitab qoy, kitab götür” layihəsinin təbliğat kampaniyası keçirilib




***Naxçıvan Dövlət Universitetində “Kitablar tozlanmasın” devizi altında “Kitab qoy, kitab götür” layihəsinin təbliğat kampaniyası keçirilib.***

Əvvəlcə Naxçıvan Dövlət Universitetinin elmi katibi Məftun İsmayılov çıxış edərək tədbirin mahiyyəti haqqında məlumat verib. Sonra Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov muxtar respublikada həyata keçirilən gənclər siyasətindən, həmçinin gənclərə göstərilən diqqət və qayğıdan, yaradılan şəraitdən danışıb. Bildirilib ki, təbliğat kampaniyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş oxunması zəruri olan kitablar, həmçinin Azərbaycan və dünya bədii ədəbiyyatı nümunələrinin yer aldığı 100 bədii kitab gənclərin istifadəsinə verilib. Layihənin keçirilməsində məqsəd gənc nəsildə vətənpərvərlik, tarixə, milli köklərə bağlılığın formalaşdırılması, onların kənar təsirlərdən qorunması üçün dünyagörüşlərinin zənginləşdirilməsi, dövlətə, dövlətçiliyə, Vətənə, xalqa bağlılıq hisslərinin, mütaliə vərdişlərinin aşılanmasıdır.

“Kitablar tozlanmasın” devizi altında “Kitab qoy, kitab götür” layihəsinə bu il iyulun 20-də Naxçıvan şəhərində yerləşən “Zirvə” kitab evində start verilib. Orada, eyni zamanda Gənclər və İdman Nazirliyində ayrılmış bir guşədə layihə davam etdiriləcəkdir.

Layihə ilə bağlı gənclərə məlumat verildikdən sonra gənclər özləri ilə gətirdikləri kitabları yeniləri ilə dəyişdiriblər. Qeyd edək ki, təbliğat kampaniyası bundan sonra muxtar respublikanın rayon və şəhərlərində, həmçinin digər ali və orta ixtisas təhsili müəssisələrində davam etdiriləcəkdir.

Xatırladaq ki, kampaniya Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilir.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

## Riyaziyyatçı alimin uğurları artır

*Muxtar respublikamızın ali təhsil və elm müəssisələrində çalışan riyaziyyatçılar sırasında Naxçıvan Müəllimlər İnstitutu Ali riyaziyyat və informatika kafedrasının professoru, riyaziyyat üzrə elmlər doktoru, muxtar respublikanın Əməkdar müəllimi Yaqub Məmmədovun öz yeri var.*

Ömrünü elmə həsr etmiş bu zəhmətkeş alim apardığı elmi-tədqiqatları, riyaziyyatın müxtəlif sahələri üzrə ölkə və dünya elmi mətbuatındakı çıxışları, 40 ildir ki, ali məktəblərimizin auditoriyalarında etdiyi mühazirələri ilə nüfuz qazanıb. Onun yetişdirdiyi riyaziyyatçı kadrlara bu gün muxtar respublikanın bütün bölgələrində rast gəlmək olar.

Yaqub müəllim tələbələrə qayğı ilə yanaşır, əldə etdiyi bilikləri onlara həvəslə öyrədir, müasir təlim üsullarına üstünlük verir, informasiya-kommunikasiya texnologiyalarının həyatımızdakı rolunu nəzərə alaraq tələbələrin bu texnologiyaların sirlərinə yiyələnməsinə çalışır, istedadlı gəncləri elmi dərnəklərə cəlb edərək onların tədqiqatçılıq bacarığını inkişaf etdirir. İnstitut Tələbə Elmi Cəmiyyətinin xətti ilə tələbə elmi-tədqiqat işlərinin mövzularının aktuallığına xüsusi diqqət yetirən müəllim həmişə çalışır ki, praktik işlərə çox yer verilsin və tələbələr hələ aşağı kurslardan tədqiqatçılıq vərdişlərini mənimsəsinlər. Bunun üçün tələbələri kiçikhəcmli tədqiqatlara cəlb edir, hazırlanmış işlərin digər tələbələrlə müzakirəsini aparır.

Mühazirələrinin canlı keçməsi üçün öz üzərində ciddi çalışır, güclü elmi mənbələrə istinad edir. Professor Yaqub Məmmədov muxtar respublikada riyaziyyatla məşğul olan gənc elmi kadrların hazırlanmasına da diqqət yetirir.

Onun zəhməti də müntəzəm olaraq öz əvəzini alır. 2017-ci ildə “Avropa Nəşr Mətbuat Evi” mükafat komissiyasının qərarı ilə istedadlı gənc mütəxəssislərin hazırlanması, onlara vətənpərvərlik hisslərinin aşılanmasında səmərəli fəaliyyətinə, cəmiyyətdəki fəal ziyalı mövqeyinə, apardığı uğurlu elmi tədqiqatlarına, elmi-publisistik kitablarına, dərs vəsaitlərinə və ölkədə pedaqogika elminin inkişafına göstərdiyi xidmətlərinə görə professor Yaqub Məmmədov “Ən yaxşı vətənpərvər tədqiqatçı alim” Qızıl medalı ilə təltif olunub.

2010-cu ildə Azərbaycan Riyaziyyatçılar Cəmiyyətinin üzvü seçilən Yaqub Məmmədov 1 monoqrafiya, 2 dərs vəsaiti, 4 metodik vəsait, 48 məqalə, 62 tezis, 3 fənn proqramı olmaqla, 120 elmi-metodik əsərin müəllifidir.

Məqalələrindən 13-ü xaricdə (Amerika Birləşmiş Ştatları, İngiltərə, Yaponiya, Çin, Bolqarıstan, Rumıniya, Hindistan, Qazaxıstan, Türkiyə) dərc edilib ki, onlardan 10-u impakt faktoru olan elmi jurnallardır. İştirak etdiyi 33 beynəlxalq konfrans, simpozium və konqresin 13-ü xaricdə keçirilib. Bu tədbirlərdəki çıxışları çoxsaylı mütəxəssislər tərəfindən yüksək dəyərləndirilib. Bütün bunları mənalı yaşanan alim ömrünə qızıl səhifələr kimi yazmaq mümkündür.

2018-ci ili Yaqub müəllim üçün daha uğurlu illərdən biri saymaq olar. Onun Amerika Riyaziyyatçılar Cəmiyyətinin saytında indeksləşdirilərək yerləşdirilən məqalələrinin sayı 18-ə çatıb. Onu da qeyd edək ki, 2011-ci ildə Yaqub müəllimin bu saytda 8 məqaləsi, 2013-cü ildə isə daha 5 məqaləsi indeksləşdirilərək yerləşdirilib.

Ciddi məhsuldarlıqla çalışan alimin 2018-ci ildə daha 4 məqaləsi müxtəlif elmi nəşrlərdə dərc olunub, 3 beynəlxalq konfransda məruzə ilə çıxış edib. Onun tezisləri, bir fənn proqramı işıq üzü görüb. Həmin məqalələrdən biri xaricdə – Bolqarıstan Respublikasının elmi jurnallarının birində dərc olunub.

Yaqub müəllim bu gün də yorulmadan çalışır, pedaqoji fəaliyyətini, elmi tədqiqatlarını davam etdirir. Bütün bu işlərdə ona müvəffəqiyyətlər, cansağlığı arzulayırıq.

**Elşad AĞAYEV**
***riyaziyyat üzrə fəlsəfə doktoru, dosent***

## İnsan alverinə qarşı mübarizə ilə bağlı təlimlərə başlanılıb



*Naxçıvanda Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün insan alverinə qarşı mübarizə sahəsində keçirilən silsilə təlimin dekabr ayına olan mərhələsinə başlanılıb.*

Təlimin ilk günündə Dövlət Miqrasiya Xidmətinin əməkdaşları Elnur Zellabdinov, Tural Bayramov və Həmid Muxtarlının “Tənzimlənməyən miqrasiya və ya insan alverinə baxış”, “Beynəlxalq təriflər”, “Milli qanunvericilik”, “Miqrasiya Məcəlləsi və Milli Fəaliyyət Planı 2014-2018”, “İnsan alveri göstəricilərinə giriş”, “İnsan alverinin 3 mərhələsi” mövzularında məruzələri dinlənilib, təqdimatları olub və mövzu ətrafında müzakirələr aparılıb.

“Azərbaycanda insan alverinə qarşı mübarizə üzrə milli potensialların artırılması” layihəsi çərçivəsində təşkil edilmiş təlimin əsas məqsədi insan alverinə qarşı mübarizə və insan alveri qurbanlarının müdafiəsi üzrə fəaliyyətin daha effektiv aparılması istiqamətində imkanların artırılmasıdır.

Qeyd edək ki, dekabrın 19-da başlayan üçgünlük təlimdə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin 15 əməkdaşı, həmçinin xidmətin təlimçi qismində nəzərdə tutulmuş 3 əməkdaşı iştirak edir. Təlimçi və təlimat vəsaitinin müəllifi, müstəqil ekspert John Linehan və BMqT-nin Azərbaycandakı nümayəndəliyində layihə assistenti Könül Cəfərova məruzələrlə çıxış edirlər.

## Profilaktik tədbirlər aparılır

*Naxçıvan şəhərindəki 8 nömrəli tam orta məktəbdə keçirilən tədbir muxtar respublikada yetkinlik yaşına çatmayanların hüquq və azadlıqlarının qorunması mövzusuna həsr olunub.*



Tədbiri giriş sözü ilə şəhər Təhsil Şöbəsinin müdiri Elşən Qəbulov açıb.

Naxçıvan Şəhər Polis İdarəsinin ictimai təhlükəsizlik bölməsinin yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili qrupunun baş inspektoru, polis kapitanı Fariz Nəsirov diqqətə çatdırıb ki, muxtar respublikanın uşaq hüquqları konvensiyasına uyğun olaraq 2018-ci il ərzində təmsil etdiyi qrupun əməkdaşları tərəfindən şəhər ümumtəhsil müəssisələrində bir sıra hüquqi maarifləndirici və profilaktik tədbirlər həyata keçirilib. Bu tədbirlərdə uşaqların yol hərəkəti qaydalarına düzgün riayət etmələri, onların sağlamlığı üçün təhlükə törətməmələri, baş verəcək qəzaların mahiyyəti barədə, həmçinin şəhər ərazisində internet kafe-oyun salonlarında dərsdənkənar vaxtlarını keçirən zaman azyaşlılara sosial şəbəkələrdən düzgün istifadə etmələri barədə məlumatlar və məsləhətlər verilib.

Tədbirdə Naxçıvan Şəhər Polis İdarəsi Veteranları Şurasının sədri, istefada olan polis polkovnik-leytenantı Mübariz Quliyev çıxış edib. Bildirib ki, bu tədbirlərin başlıca məqsədi azyaşlı uşaqlarda mənəvi-psixoloji anlayışı formalaşdırmaq, onlarda gələcək üçün təhlükəli həyat riskini azaltmaq və sağlam mühit düşüncəsini inkişaf etdirməkdir.

Sonda 6 nəfərə biometrik şəxsiyyət vəsiqəsi təqdim olunub.

### Sağlam həyat tərzi

## Soyuq havada idmanın faydaları



*İdman edərkən yol verilən səhvlər insan orqanizmi üçün sonradan bir sıra fəsadlar törədir ki, bu da zaman keçdikcə orqanizmdə müəyyən problemlər yaradır. Məhz buna görə, idman ilin hər fəslinə uyğun şəkildə edilməlidir. Məsələn, yay və yaz aylarında daha çox açıq havada məşq etmək məsləhət görülür.*

Həkimlərin araşdırması göstərir ki, ilin hər fəslində idman həyatımızın bir hissəsi olmalıdır. Qidalanmanı tənzimləmək, idmanı həyat tərzi halına gətirmək daha yaxşı və uzun ömür üçün sadə, ancaq effektli bir yoldur. Bu zaman ortaya maraqlı sual çıxır – soyuq havada qadın və kişilərə hansı yaşda, hansı idman növü ilə məşğul olmaq məsləhət görülür?

İdman mütəxəssisləri məsləhət görürlər ki, qadınlar 20-30 yaş aralığında daha çox fitneslə məşğul olmalıdırlar. Çünki 20 yaşdan sonra maddələr mübadiləsi yavaşlamağa başlayır. Buna görə də 30 yaşına kimi həftədə 4 gün 1 saat məşq etmək məsləhətdir. 40 yaşında isə günlərin sayını azaltmaq və daha çox ağırlıq məşqi etmək lazımdır – həftədə 3 gün. Bu yaşda idmana yeni başlayanlar isə həkimlə məsləhətləşməlidirlər. 50 yaş üçün ən ideal məşq həftədə iki dəfə ağırlıq məşqidir. Bu yaşdan sonra idmanı buraxmaq sağlamlığa bilavasitə təsir göstərir. Ona görə də qısa qaçışlar, üzgüçülük və ya velosiped sürmək bu yaşa tam uyğundur.

Kişilərdə isə bu bir qədər fərqlidir. 20 və 29 yaş arasında kişilər fiziki baxımdan güclü, enerjili olur və idmana bir qədər dırnaqarası yanaşırlar. Bu, yanlış düşüncədir. Çünki 30 yaşda bəzi hormonlar azalmağa başlayır və bu da insana həm fiziki, həm də psixoloji təsir edir. Həkimlər bu yaşda daha çox fiziki güc tələb edən məşqlər etməyi məsləhət görürlər. Müəyyən dövrdən sonra məşqlərin sürətini artırmaq lazımdır ki, orqanizm müqavimətdən düşməsin. 50 yaşında soyuq havada edilən idman yağsız bədən kütləsini qorumağa kömək edən hormonları oyandırır. Əgər bu yaşda idmanla məşğul olunmazsa, maddələr mübadiləsi yavaşlayar və sümüklərdə “yorğunluq” meydana gələr. Bu yaşdan sonra formada qalmaq, ürək çatışmazlığı və şəkər kimi xəstəliklərdən qorunmaq üçün yüngül idman növlərindən istifadə etmək lazımdır. Məsələn, yüngül qaçış, velosiped sürmək, dağ yürüşü etmək və sair.

Qış fəslində açıq havada idmanla məşğul olmaq orqanizmin daha sağlam inkişaf etməsinə zəmin yaradır. Lakin bu zaman məşq edərkən bəzi məqamları bilmək vacibdir. Bunlardan biri məşqə başlamazdan əvvəl isinmə hərəkətləridir. Soyuq qış aylarında isinmə, gərilmə hərəkətləri əzələləri dartınmaqdan, əzilmələrdən qoruyur. Peşəkar idmançılar isinmə hərəkətlərini 35-45, qeyri-peşəkar idmançılar isə 20-22 dəqiqə etməlidirlər. Qış aylarında idmanla məşğul olarkən daha çox geyimə fikir vermək lazımdır: tərkibi yun və ya pambıq geyimlər bu fəsil üçün məqsədəuyğun deyil. Çünki bu geyimlər tərlə birgə isinir və bədəni nəmli saxlayır. Soyuq havada məşq etdikdən sonra protein kokteyllərindən istifadə faydalıdır. Həmin kokteyllər əzələ kütləsini artırmağa kömək etməklə yanaşı, orqanizmə heç bir mənfi təsir göstərmir.

İsti günlərdən fərqli olaraq soyuq havada səhər yeməyindən 2 saat, nahardan isə 4 saat keçməmiş idman etmək məsləhət görülmür. Bu zaman sağlamlıq üçün bəzi sadə qaydalara tətbiq etmək lazımdır.

Bəzi idman mütəxəssisləri qeyd edirlər ki, qış aylarında məşq zamanı çoxlu maye qəbul etmək sağlamlığa daha təsirlidir. Gün ərzində bir dəfə məşq edənlər 1,5 litr maye qəbul etməlidirlər. Soyuq havada idman edərkən bədən daha çox isinməyə ehtiyac duyar və əzələlərdə titrəmə baş verər. İdmandan yarım saat əvvəl karbohidratlarla zəngin yeməklərlə qidalanmaq lazımdır.

İdmançıların ən böyük problemi müəyyən qidaların onların çəkilərini artırmasıdır. Odur ki, qış aylarında pəhrizə riayət etmək üçün proteinlə zəngin qidalar və 2 ovuc kişmiş yemək məsləhət görülür. Məşqdən dərhal sonra içilən proteinli kokteyl bədənin gücünü bərpa edir və zülalların əzələlərdəki sintez prosesini sürətləndirir.

İdman mütəxəssisləri məsləhət görürlər ki, effektli məşqlərdən sonra havanın temperaturuna uyğun olaraq qidalanmaq lazımdır. İstəyə görə yumurta, təzə meyvə suyu, mövsümi meyvələr, tərəvəzlər, balıq əti, kartof yemək itirilmiş enerjini yenidən bərpa edir və onu əzələ kütləsinə çevirir.

**Ceyhun MƏMMƏDOV**

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 923